# Tatyana Buloxova cinayəti və Sovet Azərbaycanının hüquq mühafizə orqanları

written by Shalala Mammadova Şəlalə Məmmədova

Hüquq mühafizə orqanları istənilən dövlətdə kritik infrastruktur, hakimiyyətin simvolu hesab olunur. Hüquq mühafizə orqanlarının fəaliyyətinin keyfiyyəti, cəmiyyətlə davranışı və sosial imici siyasi hakimiyyətin və vətəndaş cəmiyyətinin mahiyyəti haqqında əhəmiyyətli göstəricilərdəndir. Bəzən tək bir cinayət və ya ittiham dövlətin sosial-siyasi mənşəyi, cəmiyyətin inklüzivlik səviyyəsi haqqında mühüm məlumatlar mənbəyinə çevrilə bilir. Məsələn, Fransada Dreyfusun[1], Rusiyada Beylisin[2] işi belə bir nümunə ola bilər. Siyasi fəlsəfənin önəmli simalarından sayılan Hannah Arendt hakimiyyətlə zorakılıq arasında münasibətləri təhlil edən bütün tədqiqatlarda iqtidarla zorakılığın eyniləşdirildiyini vurğulayır və Maks Veberin dövlətin tərifini "zorakılıq alətinə söykənən" kimi müəyyənləşdirdiyini yazır.[3] Siyasi rejimlərin zorakılıqla əlaqələrini təhlil edən Arendtə görə, respublikadan fərqli olaraq, qanunlarla tənzimlənməyən demokratiyada azlıqların ciddi şəkildə təqibi və fikir azadlığının boğulması mümkündür.[4] Britaniyalı sosialoq Cok Yanqın (Jock Young) fikrincə isə hüquq-mühafizə orqanlarının sosial davranışı vətəndaş cəmiyyətinə kimin daxil olduğunu müəyyənləşdirən mühüm markerdir.[5] Bu məqalədə mən İkinci Dünya müharibəsindən sonra Azərbaycanın ikinci sənaye şəhəri Kirovabadda (indiki Gəncə) törədilən bir cinayət işinin respublikanın hüquq mühafizə orqanlarının fəaliyyəti və respublikadakı kriminal vəziyyət və millətlərarası münasibətlərlə bağlı hansı problemləri üzə çıxardığı haqqında yazacağam. Bu məlumatlar Stalindən sonra sovet Azərbaycanında hüquq mühafizə orqanlarının işi ilə bağlı müəyyən təsəvvürün formalaşmasına imkan verəcək.

**Buloxova cinayəti və Kirovabadın kriminal vəziyyəti**

1956-cı ilin iyununda Moskvanın Sovxozların Tikintisinin Layihələşdirilməsi üzrə Dövlət İnstitutunun (GİPROSOVXOZSTROY) 24 yaşlı mühəndisi Tatyana Buloxova Azərbaycan Elmlər Akademiyasının Kirovabad şəhərində yerləşən Seysmoloji stansiyasına ezamiyyətə göndərilir. Qatarla Kirovabada gecə saatlarında çatan gənc mütəxəssis vağzaldakı gözləmə otağında boş yer olmadığı üçün birbaşa stansiyaya getmək qərarına gəlir və bu məqsədlə vağzalın yanındakı taksilərdən birinə əyləşir. Tatyanadan bundan sonra xəbər almaq mümkün olmur. Tatyananın meyiti şəhər kənarında çoban tərəfindən onun şəhərə gəlməyindən 11 gün sonra tapılır. Məhkəmə-tibbi ekspertizanın rəyinə görə, Buloxova boyun və sinəsinə kəsiçi alətlə endirilmiş çoxsaylı zərbələrdən sonra qan itirərək ölmüşdür.

Onun ölümü ilə bağlı başlanan istintaq heç bir nəticə vermədiyindən 1956-cı ilin avqustunda Sovet İttifaqı Kommunist partiyası (Sov.İKP) Mərkəzi Komitəsinin (MK) tapşırığı ilə başda SSRİ Daxili İşlər nazirinin müavini Nikolay Dudorov[6] olmaqla, beş nəfərdən ibarət xüsusi komissiya Buloxovanın cinayəti üzrə təhqiqat aparmaq üçün Kirovabada gəlir. Komissiya 1956-cı il oktyabrın 4-də MK-ya geniş hesabat təqdim edir.[7] Hesabatda həm Kirovabad hüquq mühafizə orqanlarının işi, əməkdaşları, həm də şəhərin ümumi vəziyyəti haqqında maraqlı məlumatlar yer alıb. Sov.İKP MK-ya təqdim edilməmişdən üç gün əvvəl nazir müavini Dudorov və MK-nın İnzibati orqanlar şöbəsinin müdiri Aleksey Yeliçev hesabatda qeyd edilmiş problemlərlə bağlı müzakirələr üçün Bakıda Azərbaycan Kommunist Partiyası (AzKP) MK-ı binasında keçirilən iclasda çıxış edirlər. Müzakirə zamanı qeyd edilən nöqsanların mövcudluğunu həm MK katibi İmam Mustafayev, həm də Nazirlər Sovetinin sədri Sadıx Rəhimov təsdiq edir. Respublika rəhbərliyinin etiraz edə bilmədikləri problemlər isə sovet Azərbaycanında partiya və dövlət orqanlarının hüquq mühafizə orqanları ilə əlbir olub  cinayətkarlığa dəstək verdiyinə dəlalət edirdi.

Hesabatın əvvəlində qeyd edilir ki, Buloxovanın cinayət işinin təhqiqatı üçün başlanan yoxlamalar Azərbaycanın Kirovabad və ətraf rayonlarında görünməmiş həddə çatmış cinayətkarlıq və quldurluğun, sovet qanunvericiliyinin kobud şəkildə pozulması faktlarının aşkarlanmasına imkan verib. On səhifəlik hesabata komissiya üzvlərinin Kirovabad və ətraf rayonların sakinləri ilə keçirdiyi görüşlərin, hüquq mühafizə orqanlarındakı istintaq materiallarının təhlilinin, respublika və şəhər üzrə cinayətkarlıqla bağlı hesabatların araşdırılmasının nəticələri daxil edilmişdi. Hesabatda Kirovabadda cinayətkar qrupların və quldur dəstələrinin açıq şəkildə fəaliyyət göstərdikləri və əhalini qorxu altında saxladığı, partiya, sovet və hüquq-mühafizə orqanlarının əhalinin çoxsaylı şikayətlərinə biganə qalmaları, rüşvətxorluq və qanunsuzluqlar, quldurluq, oğurluq haqda faktlar yer almışdı. Kirovabadda qadınlara qarşı zorakılıq hallarının artması xüsusilə vurğulanmış, qadınlara həyat yoldaşlarının, oğul və qardaşlarının yanında şəxsiyyəti təhqir edən davranış, cinsi qısnama halları sadalanmışdı. İşdən sonra şəhərin küçələrinin, parkların, mədəniyyət ocaqlarının tamamilə boş olmasına diqqəti çəkən nazir müavini sakinlərin bunu ağır kriminogen vəziyyətlə izah etdiklərini bildirmişdi.

Hesabatın müəllifləri qeyd edirdilər ki, cinayətkarlıqla bağlı mərkəzə təqdim edilən hesabatlar, statistik rəqəmlər həqiqəti əks etdirmir. Misal üçün, milis şöbələrində zorlama ilə bağlı 1955-ci il və 1956-cı ilin ilk 8 ayı üzrə cəmi 4 cinayət işi açılmışdı, halbuki faktiki olaraq qeyd edilən dövrdə 42 zorlama hadisəsi olmuş, qeyri-millətlərin nümayəndələri, xüsusilə rus qadınları əksər hallarda müəyyən səbəblər üzündən şikayət etməkdən imtina etmişdilər. Milis zorlama ilə bağlı 42 şikayətin 22-ini qanunsuz olaraq qeydə almaqdan imtina etmişdi. Hesabatda qeyd edilirdi ki, milis və prokurorluq zorlanmış qızları cinayətkarla nikah bağlamağa məcbur edərək faktki olaraq cinayəti cəzasız qoyur. Zorlamalarla daha çox rus qadınları üzləşirlər, lakin Azərbaycanın müxtəlif bölgələrindən Kirovabada iş dalınca gəlmiş azərbaycanlı qızlar

da zorlamaya məruz qalırlar. Bununla bağlı iş üçün Naxçıvandan Kirovabada gəlmiş 18 yaşlı Baxşəliyevanın taleyi haqqında məlumat verilir.[8] 1956-cı ilin aprelində qrup şəklində zorlamaya məruz qalmış Baxşəliyevanın işi üzrə cinayətkarlar məlum olsa da, onların heç biri həbs edilməmişdir. Buna səbəb isə şəhər prokurorlarından birinin cinayətkarlardan birinə Baxşəliyeva ilə nikaha girməyi tövsiyə etməsi olmuşdur. Ölüm ilə təhdid edilən Baxşəliyeva cinayətkarlardan biri ilə nikaha girməyə məcbur edilmiş və beləliklə, cinayət işinə xitam verilmişdi. Komissiya cinayət işinin yenidən bərpa edilməsini tələb etdikdən sonra cinayətkarlar həbs edilmişdilər.

Hesabatda qeyd edilirdi ki, hüquq mühafizə orqanları ağır cinayətlərlə bağlı istintaq işlərinə səhlənkar yanaşır, bununla da cinayətkarların sərbəst gəzməsinə şərait yaradır, qarşılığında  küllü miqdarda rüşvət alırlar. Misal olaraq, 1953-cü ildə İ.İsmayılovun qətli göstərilir. Qətlin kimin tərəfindən törədildiyi şahidlərin ifadəsinə əsasən müəyyənləşdirilsə də, cinayətkarlar həbs edilməmiş, onlardan birinin isə hazırda Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində tələbə olduğu, iki şəxsi maşına (Zil və Pobeda) malik olduğu bildirilirdi. Şəhər prokuroru Əliyevin cinayətkarları dəstəklədiyini iddia edən İttifaq nazirinin müavini Əliyevin prokuror kreslosunda deyil, həbsxanada oturmalı olduğunu bildirirdi.

Hesabatda qeyd edilən dövrdə şəhərdə 243 quldurluq, oğruluq və bilərəkdən bədənə xəsarət yetirmə hadisəsinin baş verdiyi yazılırdı. Nazir müavini yazırdı ki, bu cür cinayətlərin üstü açılmadığı və cinayətkarlar cəzasız qaldığı üçün onların sayı ilbəil artır. Bu cür cinayətlər üzrə məhkəmə prosesləri aylarla davam edir, müxtəlif məhkəmələrə göndərilir və sonunda cinayətkarlar bəraət qazanırdı. Məsələn, 1955-ci ilin avqustunda Kirovabad un dəyirmanından 56 ton buğda oğurlanmışdı. Şəhər prokurorluğu və  respublikanın Ali Məhkəməsinin səhlənkarlığı ucbatından bu cinayət işinə baxılması ləngidilmiş, cinayətkarlar cəzalandırılmamışdır. Hesabatda Kirovabadda cinayətkarlıqla bağlı vəziyyət təhlil

edilərkən şəhərin bu baxımdan Azərbaycan üçün unikal olmadığı, paytaxt Bakıda da gərgin kriminal vəziyyətin hökm sürdüyü qeyd olunurdu.

Respublikada kriminogen vəziyyətlə bağlı statistik rəqəmlərə istinad edən nazir müavini 1955-ci il və 1956-cı ilin birinci rübündə 278 qətl hadisəsinin, 237 zorlama, 313 ağır bədən xəsarətinin yetirilməsi, 347 qəsb, çoxlu sayda xuliqanlıq və digər cinayətlərin törədildiyini qeyd edir. Hesabatda yer alan məlumatların bir hissəsi Bakı şəhərinə aid idi. Sənəddə göstərilirdi ki, 1956-cı ilin ilk 8 ayında respublikanın paytaxtında 46 zorlama hadisəsi baş vermiş və adətən zorlamalar bədənə ağır xəsarətlərin yetirilməsi ilə müşayiət olunmuşdu. Yerli sakinlərlə söhbət zamanı yerli partiya və sovet orqanlarının fəaliyyətindən narazılıqlarını səsləndirənlər yazılan və edilən şikayətlərə biganə münasibəti xüsusi qeyd edirdilər. Hesabatda maraqlı məqamlardan biri bəzi rayon partiya komitəsi katiblərinin vətəndaşların şikayətlərində anti-sovet məzmunu axtarması və şikayət məktublarını araşdırmaq üçün Dövlət Təhlükəsizlik Komitəsinə (DTK)  və ya prokurorluğa göndərilməsi və şikayət edənlərin özlərinin məsuliyyətə cəlb edilməsi cəhdləri ilə bağlıdır. Digər maraqlı məlumat kolxozlarda hər hansı narazılıqların və şikayətin səsləndirilməsinin şikayət edənin təhqir və zorakılığa məruz qalması ilə nəticələnməsi idi. Kolxoz rəhbərliyinin sadə kolxozçulara qarşı zor tətbiq etməsi, onların rəhbərlik və ya rəhbərliyin yaxınları tərəfindən döyülməsi ilə bağlı hesabatda 33 hadisə qeyd edilmişdir. Zərər çəkənlər sadə kolxozçular, onları döyənlər isə kolxoz sədrləri və briqadirlər idi.

Hesabatda respublikanın yuxarı instansiyalarına edilən şikayətlərə DİN, Baş prokurorluq, Ali Məhkəmə tərəfindən laqeyd münasibət, SSRİ Nazirlər Sovetinin məktublar şöbəsinin respublikanın kriminogen vəziyyəti ilə bağlı İmam Mustafayev və Sadıx Rəhimovun adına göndərilən qeydlərə heç bir reaksiyanın olmadığı qeyd edilirdi. Komissiya Kirovabadda araşdırma apararkən ictimai asayişin möhkəmləndirilməsi üçün

şəhərə SSRİ DİN Baş Milis İdarəsi və respublika Milis İdarəsinin bir qrup əməkdaşı ezam olunmuş, küçələrə yerli hərbi qarnizondan hərbi patrullar çıxarılmışdı. Hesabatda adı çəkilən şəhər prokuroru Əliyev və müstəntiq Hüseynov sovet qanunçuluğunu kobud şəkildə pozduqları üçün partiya məsuliyyətinə cəlb edilmiş, milisin bir neçə əməkdaşına qarşı təhqiqat başladılmışdı. Komissiyanın əldə etdiyi nəticələr əsasında 1956-cı il sentyabrın 24-də Bakıda milis, prokurorluq və məhkəmə işçilərinin iştirakı ilə geniş iclas keçirilmişdi.

**Dudorovun hesabatına İmam Mustafayevin cavabı**

1956-cı ilin yayında Azərbaycanın Kirovabadda törədilmiş bir cinayət işinin təhqiqatı respublikanın hüquq mühafizə orqanları, partiya və sovet rəhbərliyinin fəaliyyətinin təhlilinə yol açdı. Buloxovanın cinayət işi ilə bağlı hazırlanan hesabat 1956-cı ilin oktyabrında Sov.İKP MK-də müzakirəyə çıxarıldı. Uzun illər “tam məxfi” qrifi ilə saxlanılan sənəddə İmam Mustafayevi narahat edən əsas məsələ respublikada cinayətkarlığın artan səviyyəsi deyil, millətlərarası münasibətlərlə bağlı səsləndirilən fikirlər idi. Kirovabadın rus və erməni əhalisinin şikayətlərinin daxil edildiyi sənəddə şəhərdə millətlərarası münasibətlərdə mövcud olan problemlər təsvir edilir, azərbaycanlılar qeyri-millətlərin nümayəndələrinə təzyiq və diskriminativ münasibətdə ittiham olunurdular. Mustafayev respublikada hökm sürən kriminogen vəziyyətə, cinayətkarlığın artmasına, yerli partiya və sovet orqanlarının bu qanunsuzluqlara göz yummasına və bununla da qanunsuzluqları və özbaşınalıqları təşviq etməsinə etiraz etmirdi. Yaranmış vəziyyətdə onun şəxsi məsuliyyəti o qədər də böyük deyildi. Bu təhqiqat başlayanda Mustafayev iki ildən bir qədər artıq müddət idi ki, respublikaya rəhbərlik edirdi. Hüquq mühafizə orqanlarında çalışanların əksəriyyəti Mircəfər Bağırov dövrünün kadrları idi. Qeyd edilən nöqsanlar da birbaşa Bağırov rəhbərliyinin nəticəsi kimi qiymətləndirilə bilərdi.

Hüquq mühafizə orqanları işçilərinin cinayətkar aləmlə

əlaqələri, bəzilərinin isə hətta cinayətkar olduqları ilə bağlı məlmatlar 1954-1956-cı illərdə Azərbaycan SSR DTK sədri vəzifəsini tutmuş Anatoliy Quskovun xatirələrində də yer almışdı.[9] Bu məsələ ilə bağlı Quskov iki şəxsin adını çəkir. Quskov yazır ki, DTK-də Bakı şəhəri üzrə şöbə müdiri işləmiş polkovnik Kərimov Mircəfər Bağırovun yaxın adamı idi və onun xüsusi məxfi və gizli tapşırıqlarını yerinə yetirirdi. Bağırova qarşı çıxmağa cəsarət edən insanlara qarşı cinayətkar qrupların dəstəyi ilə saxta işlər tərtib edirdi. Belə adamlardan biri də DTK-nın Kirovabad şəhəri üzrə şöbə müdiri Əyyub Qasımov idi. Quskov Qasımovun respublikanın rəhbər vəzifəli şəxslərinin günahları və natəmiz işləri haqqında geniş məlumata malik olduğunu bildirir və qeyd edirdi ki, bu məlumatları respublika sahibinin (yəni Mircəfər Bağırovun) tapşırığı ilə onlara qarşı istifadə edirdi. Bu cür saxta işlərdən biri professor Əliəşrəf Əlizadə və onun həyat yoldaşına qarşı təşkil olunmuşdu.[10] Quskov belə faktların həddən artıq çox olmasından yazır və vurğulayırdı ki, əsas problem bu cür faktların çoxluğunda deyildi, problem ciddi qanun pozuntularına yol vermiş hüquq mühafizə orqanları işçilərinin respublikanın yüksək rütbəli şəxsləri tərəfindən dəstəklənməsində idi. Bu cür dəstək kriminal işlərə bulaşmış hüquq mühafizə orqanlarının yüksək rütbəli şəxslərinin vəzifədən uzaqlaşdırılmasına, məsuliyyətə cəlb edilməsinə imkan vermirdi.

1954-cü ildə Mircəfər Bağırovun hakimiyyətdən uzaqlaşdırılmasından bir neçə ay sonra onun təyin etdiyi baş prokuror Adil Babayevin də tutduğu vəzifəsindən azad edilməsi və ona qarşı səsləndirilən ittihamlar, vəzifə səlahiyyətini aşması, qanunsuz həbslər, insanların qanunsuz təqib edilməsi və dinlənilməsi, həmçinin bütün qanunsuz əməllər və özbaşınalıqların DTK sədri Fyodr Kopılov tərəfindən etiraf edilməsi də yuxarıda qeyd edilənləri təsdiqləyir.[11] Kopılov qanunsuz əməllərdə baş prokuror Babayevə yardım etməsini respublikadakı ağır kriminogen vəziyyətlə izah etmişdi.

İmam Mustafayevi Dudotovun hesabatında narahat edən hüquq

mühafizə orqanlarının qanunsuz əməlləri və özbaşınalıqları deyil, millətlər arası münasibətlərlə bağlı yazılanlar idi. Əgər Mustafayevin hakimiyyətdən məhz milli siyasətdə əyintilər ittihamı ilə uzaqlaşdırılmasını nəzərə alsaq, millətlərarası münasibətlərin onun üçün nə qədər önəmli olduğunu anlamış olarıq. Hesabatda rus və erməni əhalinin ağır sosial şəraitdən, gəlirli iş yerlərinin azərbaycanlılar arasında bölüşdürülməsindən, onlar tərəfindən edilən şikayətlərə məhəl qoyulmamasından, rus xanımlara qarşı zorakılıqlar və cinsi qısnamalardan, milisə şikayət etdikləri təqdirdə öldürüləcəkləri ilə təhdid edilməklərindən bəhs edilirdi.[12] 1956-cı il dekabrın 10-da Bakıda Dudorov və Yeliçevin iştirakı ilə Azərbaycan KP MK Bürosunun iclası keçiriləndə İmam Mustafayev üzünü bir neçə həftədən sonra SSRİ Daxili İşlər naziri təyin ediləcək Dudorova tutaraq ona azərbaycanlıları haqsız yerə qeyri-millətləri diskriminasiyada ittiham etdiyini söyləyir.[13] Mustafayev respublikada təkcə milli azlıqların deyil, azərbaycanlıların da acınacaqlı sosial şəraitdə yaşamasına toxunaraq, bunun milli zəmində diskriminasiya ilə deyil, müharibənin fəsadları və ümumi sosial vəziyyətlə əlaqədar olduğunu vurğulayır. Mustafayev Kirovabadın əsas sənaye və ticarət müəssisələrində işləyənlərin sayına istinad edərək azərbaycanlıların heç də əlverişli sosial mövqeyə malik olmadığını sübut etməyə çalışır.[14] Dudorovun hesabatında Azərbaycan qadınlarına qarşı zorakılıqlarla bağlı səsləndirilən rəqəmlərin isə cinayətkarların qurbanlarının milli kimliyinə əhəmiyyət vermədiyini təsdiqlədiyini bildirir.

Mustafayevin rəhbərliyi dövründə hüquq mühafizə orqanlarının natamam hazırlanmış hesabatlarında respublika üzrə kriminogen vəziyyətin ilbəil ağırlaşmasını danmaq mümkün deyildi. Geniş ictimaiyyətə qapalı olan bu rəqəmlərdə Bakı şəhərində vəziyyətin xüsusilə ağır olduğu qeyd edilirdi. 1950-ci illərdə respublika üzrə törədilmiş cinayətlərin 57%-i Bakının payına düşürdü. Cinayətlərin açılması səviyyəsi olduqca aşağı idi, hüquq mühafizə orqanlarının, xüsusilə də milisin işi yarıtmaz idi. İctimai təşkilatların, Komsomolun ictimai asayişin

qorunmasında xidmətlərinin yarıtmaz olduğu, məhkəmə orqanlarının cinayətlər üzrə ədalətsiz qərarlar çıxardığı yüsək səviyyəli partiya iclaslarında dəfələrlə səsləndirilirdi.[15]

Bakı şəhərində geniş yayılmış cinayətkarlığın səbəblərindən biri şəhərdə bir-biri ilə rəqabət aparan cinayətkar qrupların fəaliyyəti idi. 1956-cı il MK Bürosunun oktyabr iclasında Bakı şəhərində fəaliyyət göstərən cinayətkar qrupların fəaliyyəti müzakirə edilmiş, *Sarı Ənvər* ləqəbli Ənvər Ağayevin rəhbərlik etdiyi cinayətkar qrupla *Mehdi* ləqəbli Rəhim Rəhimov və Hacı Zeynalovun rəhbərlik etdiyi cinayətkar qruplar arasında rəqabət nəticəsində şəhərdə kriminal durumun ağırlaşdığı bildirilmişdi. Bu qruplar arasındakı rəqabət və onun acınacaqlı nəticələri dəfələrlə Mircəfər Bağırovun iştirakı ilə MK iclaslarında müzakirə edilsə də, cinayətkarları həbs etmək mümkün olmamışdır. Səbəb isə cinayətkar qurpların hüquq mühafizə orqanları tərəfindən dəstəklənməsi idi.

1958-ci il iyunun 16-da AzSSR DİN Əli Kərimov İmam Mustafayev və Sadıx Rəhimovun adına 1958-ci ilin may ayında respublikada cinayətkarlığa qarşı mübarizə ilə bağlı işlərin yekunu haqqında hesabat göndərir. Hesabatda göstərilir ki, qeyd edilən dövrdə Bakı şəhərində 236 cinayət törədilmişdi ki, bu da respublika üzrə may ayında törədilən cinayətlərin 48%-ni təşkil edir. Ən çox qeydə alınan cinayətlər oğurluq və xuliqanlıqdır. Bu cinayətlərin 71.5%-i dövlət əmlakının talan edilməsi, 28.5%-i isə mənzillərdən oğurluqla əlaqədar idi.[16] 1958-ci il aprelin 18-də Əli Kərimov İmam Mustafayevə 1958-ci ilin ikinci rübündə cinayətlərə qarşı mübarizə ilə bağlı “tam məxfi” qrifli yeni hesabat təqdim edir. Hesabatda göstərilir ki, qeyd edilən dövrdə respublikada 1573 cinayət işi törədilmiş, onların 1412-nin üstü açılmışdı (89.7%). Törədilən 1573 cinayətin 762-i ağır cinayət idi (48.4%). Hesabatda 1958-ci ilin 1-ci rübü ilə müqayisədə cinayətlərin 0.8%, 1957-ci ilin 2-ci kvartalı ilə müqayisədə isə 1.2% artdığı da qeyd edilirdi.  1958-ci ilin 1-ci rübü ilə 1957-ci ilin 1-ci rübünü müqayisə etdikdə cinayətlərin 3.4% artdığı məlum olur, ağır

cinayətlərdə qəsdən adam öldürmə üzrə artım isə 35.5% olmuşdu. 1958-ci il oktyabrın 23-də Mustafayevin adına “tam məxfi” qrifi ilə göndərilən digər hesabatda 1958-ci ilin 3-cü rübündə 1644 cinayətin törədildiyi, xüsusi ağır cinayətlərin sayının 758 olduğu bildirilirdi. Nazir qeyd edilən dövrdə milisin operativ-agentura işlərini yaxşılaşdırması nəticəsində cinayətlərin üstünün açılmasının bir qədər asanlaşdığını qeyd edirdi.[17] Cinayət işlərinin üstünün açılmasını çətinləşdirən əsas amillərdən biri milisin elmi-texniki nailiyyətlərdən istifadə edə bilməməsi idi. Qeyd edilən dövrdə müasir texnologiyaların istifadəsi ilə bütün cinayətlərin cəmi 4.6% açılmışdı, 12.5% cinayətlər isə xidməti itlərin köməyi ilə açılmışdı. Bu rəqəmlər milisin qeyri-professionallığından və kadrların seçilməsi zamanı şəffaflığın olmamasından xəbər verirdi. Respublika regionlarında mütəşəkkil cinayətkarlıq daha geniş yayılmışdı. Cinayətkar qruplar adətən 4-6 nəfərdən ibarət olurdu. 1957-ci illə müqayisədə 1958-ci ildə 234-dən çox cinayət işi törədilmişdi (1957-ci ildə 4518, 1958-ci ildə 4752 cinayət qeydə alınmışdı).

1958-cu il üzrə hazırlanan hesabatda respublikada 11.855 nəfərin cinayət məsuliyyətinə cəlb olunması, 6420 cinayətin törədilməsi qeyd edilmişdi. Müqayisə üçün qeyd edək ki, 1957-ci ildə törədilən cinayətlərin sayı 5996 idi. 1958-ci ildə respublikada 3027 ağır cinayət törədilmişdi, 1957-ci illə müqayisədə bu, 503 cinayət az idi. Lakin 1958-ci ildə 412 ağır cinayət işi açılmamış qalmışdı. Bakının ən kriminal rayonları Oktyabr, Nərimanov və Kirov rayonları idi. Kirovabad şəhərində və Ağdam rayonunda cinayətkarlıq yüksək idi. Hüquq mühafizə orqanlarının törədilən cinayətlərin üstünün açılmasında, istintaq işlərinin aparılmasında yol verdikləri nöqsanlar, ədalətsiz ittihamlar, günahsız insanların həbsi və yaxud kiçik cinayətlərə görə əsaslandırılması mümkün olmayan ağır cəzalar məhkəmə orqanlarının da işində ciddi qüsurların olmasına dəlalət edirdi.

Azərbaycan KP MK Prezidiumunun 1964-ci il sentyabrın 1-də keçirilən iclasında respublikada xüsusi təhlükəli

cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi tədbirləri müzakirə edilmiş, bu sahədə hüquq mühafizə orqanlarının yarıtmaz fəaliyyəti ciddi tənqid olunmuşdu. İclasda göstərilirdi ki, 1964-cü ilin I yarısında 1963-cü il ilə müqayisədə xüsusi təhlükəli cinayətlərin sayı 17.8% artmış, qəsdən adam öldürmədə 55%, ağır bədən xəsarəti yetirməklə törədilən cinayətlərin sayında 40.2%, quldurluqda 35.7%, dövlət əmlakının oğurlanmasında 27.4%, şəxsi əmlakın oğurlanmasında isə 13.7% artım qeydə alınmışdır. Hüquq mühafizə orqanlarının MK-ya təqdim etdiyi hesabatlarında respublikada kriminal vəziyyətin ağırlaşmasının əsas səbəbi kimi operatv-axtarış tədbirlərinin səviyyəsinin aşağı olması, istintaq zamanı qanun pozuntusuna yol verilməsi, hakimlərin kifayət qədər prinsipial olmaması, hüquq mühafizə orqanlarındakı rüşvətxorluğa meyillilik göstərilirdi.[18] Respuiblika prokurorluğu və istintaq orqanları cinayətin açılma səviyyəsinin aşağı düşməməsi üçün çox zaman cinayət işləri açmaqdan imtina edirdilər. İclasda bildirilirdi ki, əslində cinayət işinin qeydə alınması cinayət işlərinin açılması faizindən asılıdır. Əgər cinayətlərin üstünün açılmaması faizi yüksəkdirsə, milis yeni törədilən cinayətləri sadəcə olaraq qeydə almır. Müşavirədə qeyd edilən bir sıra ciddi nöqsanlar üzündən respublika prokuroru Seyfulla Əkbərov həmin il vəzifəsindən azad edilir.[19]

1958-ci ildə AzSSR Nazirlər Soveti respublika məhkəmələrinin işinin yoxlanılması haqqında qərar qəbul edir. Yaradılmış yoxlama komissiyası məhbuslarla söhbət apararkən respublika xalq hakimlərinin cəza müddətini düzgün təyin etmədiyini müəyyənləşdirmiş,  prokurorluq və Ali Məhkəməyə qərarlarla bağlı şikayətlərə ciddi yanaşmaq, zəruri hallarda hakimlərin qərarlarına etiraz etmək tövsiyə edilmişdir. Hesabatda göstərilir ki, Zaqataladan olan 1939-cu il təvəllüdlü iki çoban 2 qoyun oğurladıqlarına görə 10 il azadlıqdan məhrum ediliblər, halbuki onlar oğurladıqları qoyunları geri qaytarıblar. 1955-ci ildə Naxçıvan xalq məhkəməsi Nizami adına kolxozda gözətçi işləyən Hacıyev Nəcəfi 606 qram taxıl

oğurladığına görə 11 il azadlıqdan məhrum edilib, halbuki gözətçi oğurladığı taxılı kolxoza geri qaytarıb.[20] Maraqlıdır ki, ağır cinayət törədənlərin cəzadan kənar qalması, kiçik cinayətlərə görə isə ağır cəzaların verilməsi Azərbaycan Ali Məhkəməsi səviyyəsində etiraf edilirdi, lakin bunun hansı səbəbdən baş verdiyini heç kim araşdırmaq istəmir və heç kim bu vəziyyətə görə məsuliyyət daşımırdı.

Misal üçün, 1950-60-cı illərdə ağır cinayət işləmiş insanların cinayət məsuliyyətindən azad edilməsi təcrübəsinə Ali Məhkəmə üzvü A.Mikayılov toxunmuş, xalq hakimlərinin ədalətsiz olaraq cəmiyyət üçün təhlükə təşkil etməyən insanları həbsə atdıqlarını, ağır cinayət işləmiş insanlara qarşı isə mərhəmətli olduqlarını diqqətə çatdırmışdı. Mikayılov çıxışında möhtəkirliklə bağlı cinayətlərə toxunaraq məhkəmələrin böyük həcmdə möhtəkirliklə məşğul olan insanlara qarşı sərt tədbirlər görmədiyini, möhtəkirlik üçün malların hansı yollarla ələ keçirildiyini lazımi qaydada müəyyənləşdirmədiyini söyləmiş və əlavə etmişdir ki, möhtəkirlər adətən yüksək vəzifəli şəxslərin qanunsuz əməllərindən yararlanırlar. Əsil cinayətkarlar, dövlət malını oğurlayaraq möhtəkirlərin əli ilə qeyri-qanuni dövriyyəyə buraxan yüksək vəzifəli şəxslər məsuliyyətdən kənarda qalır, üstəlik daha da varlanırlar.  Lakin xalq məhkəmələri bütün bunlara səssiz qalır, vəzifəli şəxslər cinayət məsuliyyətinə cəlb edilmirlər.

Ali Məhkəmənin 1963-cü ilin noyabrında keçirilən plenumunda xalq hakimlərinin yol verdikləri ciddi nöqsanlar, istintaq prosesi zamanı qanunların və prosessual qaydaların pozulması məsələsinə toxunulmuş, bölgələrdə xalq hakimlərinin qanunsuz olaraq insanları mühakimə etdikləri diqqətə çatdırılmışdı. Bu ittihamlar xüsusilə xalq hakimi Haşımova qarşı irəli sürülmüş, ona qanunları pozduğu halda ciddi cəzalandırılacağı haqda xəbərdarlıq edilmişdi. Qəzetdə dərc olunan məlumat yüksək ədalətin bərqərar olduğu iddia edilən sosialist cəmiyyətində qanunun keşiyində durmalı olan hakimlərin qanunlara etinasız münasibətini, qanunları və sovet insanlarının taleyini şəxsi

mənafelərinə uyğun olaraq şərh və həll etmələrini ifşa edirdi. 1963-cü ildə keçirilən plenumda Azərbaycan SSR Ali Məhkəməsinin sədri Abdulla İbrahimov da cinayət cəzalarını tətbiq edərkən məhkəmələrin buraxdığı nöqsanlardan danışmış, bəzi xalq məhkəmələrinin ağır cinayət işləmiş şəxsləri sərbəst buraxması və ya əsassız olaraq qısa müddətə azadlıqdan məhrum etməsi kimi qərarlar çıxararaq cimayətkarlığa qarşı mübarizənin zəifləməsinə səbəb olmasını vurğulamışdı.[21] Ali Məhkəmənin sədri Abdulla İbrahimov xalq hakimlərinə qarşı bu cür ittihamlar səsləndirərkən bilavasitə bu qəraralar üçün məsuliyyət daşıdığını ya dərk etməmiş, ya da qanunları pozan hakimlərə qarşı hər hansı tədbir görmək səlahiyyətində olmadığını bildirmək istəmişdi.

AzKP MK Bürosunun 1969-cu il 7 yanvar iclasında MK-ya respublika hüquq mühafizə orqanlarının, prokurorluq və məhkəmələrin işi ilə bağlı vətəndaşlardan çoxlu sayda şikayətlərin daxil olduğu bildirilmişdi. Şikayətlər əsasən qanunsuz istintaq metodlarından və qanunsuz həbslərdən ibarət idi.  İclasda 1967-ci ildə yol verdikləri qanunsuzluqlara görə cəzalandırılan hüquq mühafizə orqanları işçilərinin sayının 2 dəfə artdığı qeyd olunmuşdu. Bu cəzalandırma nadir hallarda real həbslərlə bağlı olurdu və adətən vəzifə rotasiyalarından ibarət idi. 1968-ci ildə çoxlu sayda hüquq mühafizə orqanları, prokuratura və məhkəmə işçiləri inzibati qaydada cızalandırılmışdır. Büronun iclasında həmçinin bildirilmişdir ki, hüquq mühafizə orqanları vətəndaşlarla qeyri-professional rəftar edir, qanunsuz məhkəmə qərarları haqqında vətəndaşların şikayətlərinə etinasız yanaşırlar. 1968-ci ilin yanvarında Cəbrayıl rayon xalq hakimi Əkbərov hakim adına layiq olmayan hərəkətlərinə, qanunsuz əməllərinə görə tutduğu vəzifədən azad edilmişdir. Bundan əvvəl Əkbərov haqqında MK-ya çoxlu sayda şikayətlər daxil olmuş, şikayətləri yoxlamaq üçün Ali Məhkəmə hakimlərdən A.Əliyev və M.Kərimovdan ibarət komissiya təşkil edərək Cəbrayıl rayonuna göndərmişdir. Lakin komissiya onun haqqında müsbət rəy vermişdir. İclasda Ali Məhkəmə hakimlərinin belə bir qərar verməsinin səbəbləri

aydınlaşdırılmamış, MK onların tapşırılan işə məsuliyyətsiz yanaşmasını qeyd etməklə işi bitmiş hesab etmişdi.[22]

DİN və Baş Prokurorluğun MK-ya təqdim edilən hesabatlarında cinayətkarlıqla yanaşı cinayətlərin kimlər tərəfindən törədildiyi haqqında da məlumatlar daxil edilirdi. Bu məlumatlardan aydın olur ki, respublika ərazisində cinayətlərin 90%-dən çoxu fəhlələr tərəfindən törədilir, cinayətkarların 35%-dən çoxunun isə yaşı 25-dən azdır. Hesabatlar xüsusilə yetkinlik yaşına çatmamış və gənc fəhlələr arasında cinayətkarlığın səviyyəsinin yüksək olduğunu təsdiqləyir.[23]

1950-ci illərin ortalarından başlayaraq Azərbaycanda hüquq mühafizə orqanlarının fəaliyyətinin ittifaq səviyyəsində yoxlanılması, dəfələrlə edilən xəbərdarlıqlar, Azərbaycanda hüquq mühafizə orqanlarının fəaliyyətini gücləndirmək, ictimai asayişi qorumaq məqsədilə mərkəzdən göndərilən dəstək vəziyyəti dəyişdirmədi. 1968-ci il noyabrın 19-da Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin *AzSSR-də milisin fəaliyyətində buraxılan ciddi nöqsanlar və onun işinin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında* qərarı qəbul edilir. Qərarda göstərilirdi ki, respublika hüquq mühafizə orqanları edilən iradlardan heç bir nəticə çıxarmamış, sosialist qanunçuluğunun möhkəmləndirilməsi və cinayətkarlığa qarşı mübarizə işi zəif təşkil olunmuşdu. Milisin təqdim etdiyi formal hesabatlar hüquq mühafizə orqanlarında, DİN-də rahatlıq yaradır, hər şeyin qaydasında olması təəssüratı formalaşır və hüquq mühafizə orqanları əməkdaşlarında məsuliyyətsizlik daha da artır. Qərarda cinayətkarlığa qarşı mübarizənin daha da zəiflədiyi xüsusi vurğulanır, ağır cinayətlərin əksəriyyətinin açılmamış qaldığı bildirilirdi. Qərarda Bakı şəhəri üzrə cinayətkarlığın artması ilə bağlı xüsusi narahatlıq ifadə olunur və bildirilirdi ki, 1968-ci ildə respublika üzrə baş verən cinayətlərin 55%-i məhz Bakı şəhərinini payına düşür. Hüquq mühafizə orqanları dövlət əmlakının oğrulanması ilə bağlı cinayətlərə tam etinasız yanaşır, nazirliklərdə, dövlət müəssisələrində oğurluqların sayı və miqyası isə ilbəil artır.

Qərarda bildirilir ki, çox zaman cinayətkarların müəyyənləşdirilməsi mümkün olmadığından istintaq işlərinin böyük hissəsi açılılmamış qalır. Cinayətkarlığın səviyyəsi ilə bağlı rəqəmləri süni surətdə aşağı salmaq üçün DİN-nin zəif nəzarətindən istifadə edən bir sıra daxili işlər orqanlarının məsul şəxsləri anti-dövlət siyasəti yürüdərək cinayət işlərini qeydiyyata almaqdan imtina edirlər. Qərarda vurğulanırdı ki, hüquq-mühafizə orqanlarının bərbad işi ilk növbədə pis təşkil olunmuş kadr siyasəti, hüquq mühafizə orqanları rəhbər işçiləri arasında intriqalar və qeyri-sağlam iş mühitidir.[24] MK-nın qərarı ilə ciddi nöqsanlara görə nazir Məmməd Əlizadə, müavinləri A.Rzayev və D.Rzayev tutduqları vəzifələrindən azad edilirlər, müavinlər X.Cənizadə və T.Əliyevə töhmət verilir. Bakı şəhərində cinayətkarlığa qarşı lazımi mübarizəni təşkil edə bilmədiyinə, sosialist qanunçuluğunu kobud şəkildə pozduğuna görə BŞİK Daxili İşlər İdarəsi rəisi B.Mehdiyev də vəzifəsini itirir.

**Hüquq mühafizə orqanları və hakimiyyət**

Hüquq mühafizə orqanları istənilən dövlətdə mühüm infrastruktur sayılır və siyasi hakimiyyətin simvolu rolunu oynayır. Hüquq mühafizə orqanları dövlət ərazisində ictimai asayişi təmin edən, dövlət strukturlarının normal iş rejimini təmin edən bir struktur olmaqla yanaşı, eyni zamanda dövlətin siyasi zorakılıq alətidir. Dövlət cəmiyyət üzərində zorakılıq monopoliyasını məhz hüquq mühafizə orqanları vasitəsilə reallaşdırır.

Siyasət və zorakılıq arasında əlaqə müasir siyasi və sosial nəzəriyyələrin ən aktual problemlərindən biridir. Hüquq-mühafizə orqanlarının sovet Azərbaycanının rəhbərliyinə təqdim etdiyi hesabatlar hüquq-mühafizə orqanları ilə hakimiyyət arasında bağların nə qədər dərin olduğunu göstərir. Bu bağlar istənilən dövlətdə hüquq mühafizə orqanları rəhbərliyinin apolitik olmadığına və hakimiyyətin davranışlarına, idarə üslubuna uyğun gəldiyinə dəlalət edir. Sovet dövründə Azərbaycanda hüquq mühafizə orqanlarının işi dəfələrlə ən

yüksək səviyyədə tənqid edilsə də, qanunsuzluqlara, cinayət əməllərinə, özbaşınalıqlara görə hüquq-mühafizə orqanlarının rəhbər strukturlarından heç kim real cəza almamış, hüquq-mühafizə orqanlarının işində hər hansı dönüş baş verməmişdir.

---

[1] Dreyfusun işi 1894-1906-cı illər arasında Fransanı iki yerə parçalamış siyasi skandal.

[2] Beylis 1913-cü ildə Rusiyada ritual ölümdə ittiham edilən yəhudi.

[3] Hannah Arendt. Zorakılıq haqqında. Tinay Müşdiyevanın tərcuməsi. https://bakuresearchinstitute.org/hannah-arendt-zorakiliq-haqqinda/. Əldə edilib 13 iyul 2024.

[4] Arendt, Hannah. "Zorakılıq haqqında (ikinci hissə)." Tərcüməçi: Tinay Mushdiyeva. *Baku Research Institute*, June 30, 2022. https://bakuresearchinstitute.org/hannah-arendt-zorakiliq-haqqinda-2/.

[5] Jock Young. The exclusive society: Social exclusion, crime, and difference in late modernity. SAGE Publication Ltd. 2007.

[6] Bir neçə ay sonra Dudorov SSRİ Daxili İşlər naziri təyin ediləcək.

[7] Президиум ЦК КПСС 1954–1964. Том 2. Постановления 1954–1958. М.: РОССПЭН, 2015, ss.433-443, Mənbə: Российский Государственный Архив Новейшей Истории (РГАНИ) Ф. 3. Оп. 12. Д. 119. Л. 93–106.

[8] Sənədlərdə cinayət qurbanlarının yalnız soyadları qeyd olunur.

[9] Гуськом А. М. Под грифом правды Исповедь военного

контрразведчика. Люди. Факты. Спецоперации. «сугубо лично», http://militera.lib.ru/memo/russian/guskov_am01/guskov_am01.html, 8 iyul 2024.

[10] Geologiya-Mineralogiya elmləri doktoru Əliəşrəf Əlizadə 1944-1946-cı illərdə Azərbaycan Kommunist Partiyası MK-nin ikinci katibi vəzifəsini tutub.

[11] Azərbaycan KP MK Bürosunun iclası. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai Siyasi Sənədlər Arxivi (ARPİİİSSA)f.1, siy.46, iş 113, v.1-9.

[12] Президиум ЦК КПСС, s.440.

[13] Azərbaycan KP MK Bürosunun iclası ARPİİİSSA, f.1, siy.43, iş 107, v.249-253.

[14] Yenə orada.

[15]Azərbaycan KP MK Bürosunun iclası ARPİİİSSA, f.1, siy.43, iş 107, v.3-248.

[16] Daxili İşlər Naziri Əli Kərimovun MK-ya hesabatı. ARDA, f.411, siy. 34, iş 4,v.257.

[17] DİN MK-ya hesabatı. ARDA f.411, siy.34, iş 16. v.89-123.

[18] Azərbaycan KP MK Prezidiumunun iclası. ARPİİİSSA, f.1, siy.51, iş.55, v.198-203.

[19] Azərbaycan KP MK Prezidiumunun iclası. ARPİİİSSA, f.1, siy. 51, iş 318, v . 4-6.

[20] Azərbaycan KP MK Bürosunun iclası. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f.411, siy. 34, iş 4, v.192-193.

[21] Azərbaycan SSR Ali Məhkəməsinin plenumu, ARDA, f.411, siy. 34, iş 4, v.195.

[22]AzKP MK Bürosunun iclası. ARPIIISSA, f.1, siy.56, iş 15,

7-8.

[23] AzSSR Daxili İşlər naziri A.Kərimovun AzSSR Nazirlər Soveti sədrinə göndərilmiş hesabat. ARDA, f.411, siy.34. iş 66, v.69.

[24] AzKP MK Bürosunun iclası ARPİİİİSSA, f.1, siy.56, uiş 71, v.7-10.